# KİMYANIN TƏDRİSİNDƏ İNKİŞAFETDİRİCİ TƏLİMDƏN İSTİFADƏ EDİLMƏSİNİN DİDAKTİK ƏSASLARI

**T.Ə.Mahmudov**

*Bakı Dövlət Universiteti*

Birləşmiş Millətlər Təşkilatı XXI əsri təhsil əsri elan etmişdir. Bizim epoxanın spesifikliyi bəşəriyyətin tarixində indiyə qədər olmayan problemlərin yaranması və onların səmərəli yolla həll edilməsi tələblərinin irəli sürülməsidir. Həmin problemlər elmi-texniki tərəqqinin sürətlə inkişafı nəticəsində yaranmışdır və onları həll edə bilən mütəxəssisləri ölkənin təhsil sistemi hazırlamalıdır.

Bütün dövrlərdə təhsil sisteminin qarşısında üç əsas vəzifə durmuşdur. Bunlar gənclərin təlimi, tərbiyəsi və inkişafıdır. Bu gün də bunlar aktualdır. Hazırda əsas diqqət şagirdlərin idrak fəaliyyətinin inkişafına yönəlmişdir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyasında deyilir: “Təhsilin infrastrukturu zəruri amil olsa da bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur... təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı praktik bilik və bacarıqların səriştəsinin vacibliyi önə keçir.”

Səriştə əldə olunmuş bilik və bacarıqların praktik fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir [1].

Bunları yerinə yetirmək üçün təhsildə müasir yanaşmalara, kurikulumun tətbiqinə başlanmışdır. Təhsildə müasir yanaşmaların əsasını biliklərin şagirdlər tərəfindən müstəqil surətdə əldə edilməsinin təmin edilməsi təşkil edir [2-5].

Bunların nəticəsində şagird predmet və hadisənin daxili mahiyyətini dərk edir, onu özü üçün yaşayır və bir çox hallarda ilk kəşf edən rolunda olur. İnkişafetdirici təlim zamanın tələbidir. Hazırda elm və texnika çox sürətlə inkişaf edir. Elmi biliklər hər on ildə 2-3 dəfə artır və yeniləşir. Mövcud olanlar isə həmin surətlə köhnəlir. Yaxın vaxtlarda Nobel mükafatına layiq görülən tədqiqatlar orta məktəb dərsliklərinə yol tapır [6].

Bunlar dərketmənin bütün mərhələlərində şagirdlərin müstəqil tədris fəaliyyətini ön plana çəkməyi tələb edir. Müşahidə, nəzəri təhlil, dərketmə, problemin həllinin obrazının xəyalda yaradılması, onun düzgünlüyünün sübut edilməsi və bunların əsasında yeni bilik yaradılması müasir orta məktəb şagirdlərinin fəaliyyətinin əsasını təşkil edir.

Müasir didaktikaya görə biliklərin mənimsənilməsində aydınlıq, sistemlilik, assosiasiya və metod tətbiq edilməlidir. Bunların hər birinin reallaşdırılmasında idrak fəaliyyətinin elementləri–yaddasaxlama, anlamaq, tətbiq etmək,

dəyərləndirmək, yaratmaq formalaşır.

Müasir təhsil sistemində əsas ziddiyyət humanist dəyərlərin ön plana çəkilməsi və şağirdlərin fərdi xüsusiyyətlərinin, dərketmə qabiliyyətlərinin eyni olmaması səbəbindən onların hamısının praktikada yüksək təhsil nəticələrinə nail ola bilməməsidir. Ona görə də tədrisdə dərketmə prosesinin psixoloji əsasları nəzərə alınmalıdır [7,8].

Şagirdlərin idrak fəaliyyətlərinin inkişaf etdirilməsində təbiət elmlərinin böyük əhəmiyyəti var. Canlı və cansız təbiətdə baş verən fiziki, kimyəvi və bioloji proseslərin mahiyyətinin dərk edilməsi elmi dünyagörüşünün formalaşmasına səbəb olur [9].

Müasir orta məktəb kimya proqramı, dərslikləri və metodiki vasitələrin təhlili, eyni zamanda kimya müəllimlərinin dərslərinin müşahidəsi şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsində bir sıra problemlərin olamsını aşkara çıxarmışdır. Əksər hallarda nəzəri material təsvir edilir, şagird onu dinləyir yaxud dərslikdən oxuyur, yadda saxlayır və testlər yaxud çalışmalar həlli ilə möhkəmləndirilir. İnkişafetdirici təlim, faktlar, hadisələr, anlayışlar, qanunlar, nəzəriyyələr və eksperiment arasında məntiqi əlaqə diqqətdən kənarda qalır [10].

Yaradıcı – problemli məsələlərin həllinə və bunların əsasında tədqiqatçılıq bacarığının formalaşmasına demək olar ki, diqqət yetirilmir. Əsas kimyəvi anlayışların kimyəvi element→kimyəvi reaksiya sxemi ilə formalaşması və bunların əsasında maddələrin xassələrinin tərkibi və quruluşundan asılı olmasının metodiki əsaslarının müəyyən edilməsi kimyanın tədrisinin vacib problemlərindəndir. Bunların həllinin optimal variantlarının hazırlanmasl, kimyanın tədrisinin aktual problemlərindəndir [11-14].

Tədris prosesində şagirdlərin idrak fəaliyyətlərinin müəyyən didaktik sistem vasitəsilə reallaşdırılır. Şagirdlərin biliyi ilə düşünmə qabiliyyəti arasındakı əlaqə və bunların əsasında inkişafetdirici təlimin həyata keçirilməsinin metodik əsaslarının müəyyən edilməsi kimyanın tədrisində öz həllini gözləyir.

Kimyanın tədrisində müasir təlim texnologiyalarının tətbiqi, şagird şəxsiyyətinin ön plana çəkilməsi, onun istək və arzularının nəzərə alınması, öyrənilən fənnin şagirdin həyatı, orqanizmi və onu əhatə edən mühitlə əlaqəsi və s. böyük əhəmiyyət kəsb edir. Tədrisin qarşısında duran bu və digər problemlər interaktiv dərslərədə reallaşdırılır. Həmin dərslərdə idrak fəaliyyətinin inkişafının təmin edilməsi üçün orta məktəb müəllimləri qabaqcıl pedaqoji təcrübədən bəhrələnməlidir.

Pedaqoji mətbuatda kimyanın tədrisində interaktiv dərslərə aid materiallarda əksər hallarda şagirdin fəaliyyəti kimyəvi prosesin mahiyyətinin, onun səbəblərinin təhlili, şagirdin çətinlik qarşısında qalması, onun problemi həll etmək üçün yaradıcı surətdə düşünməsinin təmin edilməsi unudulur [15-21].

Ümumtəhsil məktəblərində tədrisin əsas məqsədi biliklərin effektiv

mənimsənilməsi ilə idrak fəaliyyətinin inkişaf etdirilməsidir. İdrak fəaliyyətinin səmərəli inkişaf etdirilməsi şagirdlərin fəal tədris fəaliyyətində biliklərin mənimsənilməsi prosesində həyata keçirilir. Dərketmənin bütün mərhələlərində aktiv zehni fəaliyyət təmin edildikdə təhsilalan özü üçün yeni bilik əldə edir [22].

Müasir didaktikanın əsas prinsiplərindən biri şagirdlərin təhsili ilə idrak fəaliyyətlərinin qarşılıqlı əlaqəsidir.

Dərketmə insan beyninin ali məhsuludur. İnsanın təbiəti dərk etməsini sxematik olaraq aşağıdakı kimi təsəvvür etmək olar:




**Sxem 1. Təbiətin dərk edilməsinin sxemi.**

Dərketmənin prdemeti bizim şüurumuzdan asılı olmadan mövcud olan maddi aləmdir. Dərketmə təcrübəyə yəni dərkedənin-subyektin onu əhatə edən reallığa təsiri nəticəsində yaranan təəssürata – hissiyata əsaslanır və dərkedənin şüurunda obyektiv reallığın aktiv formada əks olunmasıdır [23,24].

Eksperimental – psixoloji tədqiqatlar nəticəsində tədris prosesində nəzərə alınması vacib olan faktlar müəyyənləşdirilmiş və onların əsasında aşağıdakı qaydalar formalaşmışdırılmışdır.

1. Zehni fəaliyyətin obrazlı komponentləri onun müvəffəqiyyətli olmasına müsbət təsir edir.

2. Obrazlı düşünmə yalnız bədii yaradıcılıqda deyil, həmçinin yaradıcılıq tələb edən digər sahələrdə səmərəli olur.

3. Fikirləşmənin məntiqi və obrazlı komponentlərinin qarşılıqlı əlaqəsinə şəxsiyyətin intellektual inkişafının baza mexanizmlərindən biri kimi baxmaq lazımdır [25].

Şagirdlərin fikirləşməsinin sadələşdirilmiş sxemi belədir:




Şagird ona təqdim olunan məsələni (problemi) həll etmək üçün onu analiz etməli olur. Bunun əsasında indiyə qədər mövcud olan biliklərədn istifadə etməli olur. Prosesin mahiyyətini tam aydınlığı ilə dərk etmək üçün çatışmayan informasiyaları müəyyən edir, sonra onları müxtəlif mənbələrdən əldə edir və onların arasında yeni əlaqə formalarını tapır. Məntiqi ardıcıllıqla hərəkət etdikdə

bəzi hallarda yeni və gözlənilməyən nəticə əldə edilir. Bu şagirdə sevinc gətirir. Bunlara problemli – yaradıcı məsələlərin həllində daha çox rast gəlinir.

Müvafiq mövzuların tədrisində və onlara aid biliklərin yaradıcı surətdə tətbiqi prosesində dərketmə və ona müvafiq olaraq idrak fəaliyyəti spiralvari şəkildə inkişaf edir:

1.Qarşıya məqsədin qoyulması (problemin həllinin vacibliyinin dərk edilməsi).

2. Problemi həll etmək üçün planın tərtibi.

3. Planın yerinə yetirilməsi.

4.Problemin həllinin düzgünlüyünün yoxlanılması və fəaliyyətin qiymətləndirilməsi.

Ayrı-ayrı mövzuların öyrənilməsi, yaxud problemli məsələlərin həllində bunlar yenə də təkrar edilir. Hər dəfə bunların həcmi və məzmunu genişlənir, yeni keyfiyyət kəsb edir, idrak fəaliyyəti inkişaf edir [27].

Tədris olunan fənnin quruluşu və vəzifələri bilik və bacarıqların inkişafı və mürəkkəbləşməsi zərurətini yaradır. Şagird yeni mövzunu öyrənərkən yeni faktlarla tanış olur, onları dərk edir, aldığı biliklərin əsasında bacarıqlar formalaşır. Konkret maddənin xassələri misalında kimyəvi prosesin qanunauğunluqlarını genişləndirilmiş formada dərk edilir. Mövzuların birindən digərinə keçdikcə səbəb və nəticə əlaqələrini həyata keçirmək üçün kifayət qədər faktlar toplanır və yaradıcı surətdə düşünmə üçün zəmin hazırlanır. Növbəti yeni mövzuda fakt və hadisələrə aid məlumatlar verilir, yaxud hər hansı çalışmanı həll etmək üçün alqoritmlər mənimsənilir. Bu mərhəlini biliklərin hazır şəkildə mənimsənilməsi yaxud müxtəlif mənbələrədən beynə köçürülməsi, surətin şüurda əks olunması adlandırmaq olar. Bundan sonra şagirdin fəaliyyəti yeni məzmun kəsb edir, qismən axtarıcılıq tələb edən çalışmalar və düşündürücü məsələlər həll edilir.

Mövzunun tədrisinin sonuna yaxın tədqiqat xarakterli tapşırıqlar yerinə yetirirlir. Bilik ehtiyatı toplandıqca hazır biliklərin yaddaşa köçürülməsi və qismən axtarıcılıq tələb edən çalışmaları problemli – yaradıcı tapşırıqlar əvəz edir. Tədris ili müddətində bunlar tsiklik olaraq təkrar etdirilir. Nəticədə fənnin tədrisinə verilən təhsil vəzifələri və didaktik vəzifələr yerinə yetirilir. Bilik və bacarıqların həcmi artır, bunlar yeni keyfiyyət kəsb edir. Bunlardan əlavə şagirdin tərbiyəsi və idrak fəaliyyətinin inkişaf etdirilməsi təmin edilir [28].

Şagirdin səmərəli tədris fəaliyyətinin təşkili üçün tədris olunan hər yeni mövzunun məntiqi məzmunu olmalıdır. Yəni öyrənilən tədris materialı bundan əvvəlkilərə əsaslanmalı və sonra öyrəniləcək mövzular üçün baza rolunu oynamalıdır. Bu prinsip əsasında qurulan tədris prosesində şagird hərtərəfli tədris fəaliyyətində tədrisin obyektindən fəaliyyətdə olan subyektə keçir.

Öyrənilən mövzu kənardan gətirilməməli, o, şagirdin fikirləşməsindən,

dərketməsindən yaranmalıdır. Müasir təlim texnologiyalarında bu tələblərə motivasiyaların yaradılması ilə nail olunur. Burada şagirdlərin fəallığı yüksək səviyyədə təşkil edildikdə aşağıdakı suallara cavab tapılır: Kimya nəyi öyrənir? Biz kimyanı nə üçün öyrənməliyik? Biz kimyanı necə öyrənməliyik?

Sonuncu sualı müzakirə etdikdə şagirdlər laboratoriya avadanlıqları və kimyəvi maddələrlə davranmaq qaydaları ilə tanış olurlar. Sadə kimyəvi təcrübələri müşahidə edirlər. Sonra bunlar ilk kimyəvi anlayışları mənimsəmək üçün dayaq, istinad rolunu oynayır. Abstrakt anlayışlar atomar səviyyədə öyrədilir və kimyəvi element anlayışı formalaşdırılır [29-30].




**Sxem 3. Materiyanın təşkilinin səviyyəsinin öyrənilməsi ardıcıllığı**

Şagirdin tədris fəaliyyətinin zehni əməliyyatlarını onların özlərinin yerinə yetirdikləri eksperimentlərlə vəhdətdə təşkili mikroaləmin, molekulların və atomların dərk edilməsinin səmərəli yolu hesab edilir [31-33].

Şagirdlərin müstəqil fəaliyyəti kimyəvi eksperimentlərlə məhdudlaşmır. Müstəqil işlərin digər növləri kimi kimyanın öyrənilməsinin ilkin mərhələsində modelləşdirmədən geniş istifadə edilir. Bunların nəticəsində şagirdlər sınaq şüşələrində, ümümiyyətlə kimyəvi cihazlarda həyata keçirilən təcrübələrdə atomların parçalanmaması nəticəsinə gəlirlər. Materiyanın atomlar səviyyəsində təşkilini dərk edirlər [34].

Öyrənmənin konkretdən abstrakta və ondan yenə konkretə istiqamətində təşkili atom-molekul təliminin süurlu surətdə mənimsənilməsinə və kimyanın bu təməl üzərində qurulmasına kömək edir.Kimyanın öyrənilməsinin ilk mərhələsi müşahidələr, eksperimentlər və bunlardan çıxan nəticələr eksperimentlər üzərində qurulur. Kimyəvi anlayışlar formalaşdıqca məntiqi mühakimələr üstünlük təşkil edir, onların düzgünlüyünü sübut etmək üçün eksperimentə müraciət edilir.

Bunlar şagirdlərin idrak fəaliyyətlərini inkişaf etdirməkdən əlavə kimyanın maddələrdə baş verən tədrici kəmiyyət dəyişikliklərindən əsalı keyfiyyət dəyişikliklərinə keçid haqqında elm olmasının dərk edilməsinə səbəb olur. Dərketmənin maddələrin tərkibi, quruluşu və xassələri arasında əlaqənin bir-birini tamamlaması və ilkin şərt olması istiqamətinin inkışafı təmin edilir:




**Sxem 4. Əsas kimyəvi anlayışların öyrədilməsi ardıcıllığı.**

Kimyəvi çevrilmələrin mahiyyətinin yüksək səviyyədə dərk edilməsinin ilkin şərti makrosəviyyədən mikrosəviyyəyə keçmək və bunların əsasında maddənin atomar səviyyədə təşkil olunmasının dərk edilməsidir. Makrosəviyyə dedikdə burada şagirdin müşahidə etdiyi yaxud özünün yerinə yetirdiyi kimyəvi eksperiment nəzərdə tutulur. Şagird bunları vizual olaraq müşahidə edir.

Mikrosəviyyədə isə müşahidədən abstrakt fikirləşməyə keçirilir və maddələrdə baş verən dəyişikliklər atom və molekulyar səviyyədə dərk edilir. Bunlar kimyəvi fikirləşmənin əsasını təşkil edir.

Atom-molekul təlimi formalaşır, nəticədə maddələrin atomar səviyyədə dərk olunması təmin edilir. İlkin anlayışlar öyrədildikdə öyrənmənin istiqaməti hadisədən atoma doğru olur, sonra bu istiqamət atomdan kimyəvi hadisəyə doğru dəyişir. Bu dərketmənin atomdan molekula istiqamətinə zəmin yaradır. Sonra idrak fəaliyyəti molekuldan maddəyə, maddədən maddələrin çevrilmələrinə doğru yönəldilir.

Materiyanın kimyəvi cəhətdən təşkilinin inkişafı istiqaməti atomar hissəciklərdən molekulyar hissəciklərə (homo və heteronüvəli) onlardan assosiatlara (atomar və molekulyar) və sonunculardan aqreqatlara doğrudur [36]:

{Atomar hissəciklər} → {Molekulyar hissəciklər} → {Assosiatlar} → {Aqreqat}.

Dövri qanun atomun quruluşu, kimyəvi rabitə, üzvi və qeyri-üzvi maddələrin əsas siniflərinə aid biliklər formalaşdıqca öyrənilən konkret birləşmənin həmin sxemdəki yeri müəyyən edilir. Dərketmə əsasında ümümiləşdirmələr aparılır. Ən başlıcası bunların əsasında maddi aləmin təşkilinin elmi mənzərəsi formalaşdırılır [24].

"Dünyanın həqiqətən necə qurulmasını dərk edən insan kimyaçıdır" L.Polinq [37].

İlk kimyəvi anlayışlar,atom-molekul təlimi və atomun quruluşuna aid biliklər mənimsənildikdən sonra ümumiləşdirmələr yeni məzmun kəsb edir. Dövri sistem cədvəlindəki mövqelərinə əsasən elementlərin xassələrinə aid proqnozlar verilir.

Bunlar atomun elektron konfiqurasiyalarının quruluşuna və atomun radiusuna əsasən edilir [38].




**Sxem 5. Element atomunun quruluşu ilə kimyəvi xassələri arasında əlaqə**

Obrazlı olaraq məktəb kimya kursunu bir orqanizmə bənzətsək, bu orqanizmin hüceyrələrini, struktur elementlərini, "elektronun atomda" anlayışı

təşkil etdiyini görərik. Kimyəvi proseslərin əksəriyyətində elektronun atomdakı vəziyyəti və onun dəyişməsi əsas rol oynayır. Kimyəvi proseslər, onların qarşılıqlı əlaqəsi, birinin digəri üçün səbəb olması elektronun atomdakı vəziyyəti ilə əlaqədardır [39,40].

Müasir məktəb kimya kursunun nəzəri səviyyəsi yüksəlmişdir. Bu şagirdlərin zehni fəaliyyətlərini inkişafına və dərketmə qabiliyyətlərinə müsbət təsir edir. Nəzəriyyə ilə faktlar bir-birinə uyğun gəlmədikdə ziddiyyət yaranır və bu ziddiyyət inkişafa səbəb olur. Belə ziddiyyətlərin səbəbini müəyyən etmək üçün şagirdlər birlikdə müstəqil surətdə axtarışlar aparırlar. Bu zaman əldə edilən biliklər inkişafa səbəb olur.

Problemli stiuasiyalar müstəqil-yaradıcı düşünmənin ilkin şərtidir. Lakin didaktikada şagird fəaliyyətinin hamısının problemli təlim əsasında qurulması məqbul sayılmır [41,42].

Şagird nə vaxt düşünməyə başlayır, dərketmə fəaliyyəti formalaşır? Problem və onun həllinin zərurəti yaranır. Lakin şagirdin mövcud olan bilik ehtiyatı onu həll etməyə kifayət etmir. Bu zaman yeni informasiyaların əldə edilməsi və onlar arasında,ona indiyə qədər məlum olmayan yeni əlaqələrin yaradılması üzərində fikirləşmə davam etdirilir. Yeni bilik və yeni əlaqə forması, yəni problemin həlli bəzi hallarda gözlənilmədən tapılır. Bu təsadüfi deyil, gərgin zehni fəaliyyətin məhsuludur.

Bəzi hallarda nəzəriyyə ilə faktlar bir-birinə uyğun gəlmir. Bu zaman şagird çətinlik qarşısında qalır, problem yeni anlayışın formalaşması ilə həll edilir. məktəb kimya kursunda buna aid kifayət qədər material var. Bunlara aşağıdakıları misal göstərmək olar:

– Maddənin xassəsi onun tərkibinə daxil olan atomların sayından, yəni kimyəvi tərkibindən asılıdır. Lakin eyni tərkibə malik olan müxtəlif maddələr var. problem izomerlik anlayışının öyrədilməsi ilə həll edilir.

– İzolə edilmiş halda karbon atomunun elektron quruluşu ilə dördvalentli olması uyğun gəlmir. Orbitalların hibridləşməsi anlayışı vasitəsilə problem həll edilir.

– Eyni nəzəriyyədən məntiqi mühakimələrlə çıxan nəticələrədən yalnız biri praktikada öz təsdiqini tapır. Belə ki, etanolun tərkibinə daxil olan elementlərin valentliklərinə əsasən tərtib edilən quruluş formullardan yalnız biri etanola uyğun gəlir. Burada şagirdin gəldiyi nəticə ondan ibarət olur ki, maddələrin xassələri yalnız tərkiblərinə daxil olan atomların birləşməsi ardıcıllığı,yəni kimyəvi quruluş da nəzərə alınmalıdır [43].

Maddələr və kimyəvi reaksiyaların dərk edilməsi və onlara əsasən şagirdlərin idrak fəaliyyətlərinin inkişaf etdirilməsi T.V.Smirnovanın işlərində öz əksini tapmışdır:

1. Kimyada dərketmə obyektiv reallığa əsaslanır, maddələr, onların çevrilmələri (kimya istehsalatı və eksperiment), dərketmənin mənbəyi və vasitələridir. Dərketmənin məqsədi ictimai praktikanın təlabatının ödənilməsi və həmçinin insanın maddi və mənəvi təlabatının ödənilməsidir.
2. Biliklər obyektivdir; kimyada obyektlərin yalnız xarici tərəfi deyil daxili mahiyyəti də dərk edilir.
3. Maddələr və onların çevrilmələrinin dərk edilməsi ümumi inkişaf qanunlarına müvafiq olaraq inkişaf edir [24].

M.V.Zuyevaya görə şagirdlərin zehni fəaliyyətlərinin inkişaf etdirilməsi üçün məqsədyönlü metodiki işlər həyata keçirilməlidir.

Şagirdlərdə kimyaya aid biliklərin formalaşması və zehni fəaliyyətlərinin inkişafı üçün fənnə marağın yaradılması, fikirləşmənin öyrədilməsi və tədrisə şüurlu münasibətin tərbiyə edilməsi ilkin şərtlərindəndir. İnkişafetdirici təlimdə yaradıcı fəaliyyətin formalaşmasına etaplarla başlamaq lazımdır. Birinci etapda biliklər hazır surətdə mənimsənilir. İkincidə qismən axtarıcılıq tələb edən çalışmalar həll edilir. Üçüncü etapda şagirdin produktiv fəaliyyəti təşkil edilir. Problemli-yaradıcı məsələlərin həlli üstünlük təşkil edir. Şagirdlərdə məsələ həlli bacarığının formalaşması üçün müntəzəm və sistemli fəaliyyət həyata keçirilməlidir [44-46].

Şagirdlərin fikirləşmək qabiliyyətlərinin inkişaf etdirilməsinin metodik əsasları Y.V.Xodakov tərəfindən işlənmişdir:

1. Predmetləri müqayisə etmək bacarığı, onların oxşarlıqlarını və fərqlərini müəyyən etmək, müqayisəni predmetlərin induktiv dərk edilməsinin birinci pilləsi hesab etmək.
2. Predmetləri fikrən hissələrə bölmək, yəni analiz etmək və birləşdirmək (sintez etmək), bu zaman hissələrin qarşılıqlı təsirini öyrənmək və öyrənilən predmetə tam, bütöv kimi baxmaq.
3. Maddələrin xassələrində ən başlıca olanları ikinci dərəcəlilərdən fərqləndirmək və bunlar vasitəsilə abstraktlaşdırma aparmaq.
4. Müşahidə edilən hadisələrdən və faktlardan düzgün nəticə çıxarmaq və həmin nəticələri yoxlamaq.
5. Faktları ümümiləşdirməyi öyrətmək
6. Öz mühakimələrinin düzgünlüyünü sübut etmək, səhv mühakimələrdən çəkinmək.
7. Əldə edilən nəticələr məntiqi ardıcıllıqla şərh edilməli (şifahi yaxud yazılı) biri digəri ilə ziddiyyət təşkili etməməli.

Həmin müəllif şagirdlərin məntiqi fikirləşmələrini inkişaf etdirmək üçün yeni materialın öyrədilməsi prosesində problemli təlimdən, evristik üsuldan və

deduktiv yanaşmalardan istifadə etməyə təklif edir [47].

Müasir didaktikanın psixoloji əsasını psixologiyanın bir elm olaraq dərketmənin canlı varlığın fəaliyyətinin ən ali forması olmaqla müəyyən nəticə əldə edilməsinə yönəldilməsi təşkil edir [48].

Şagirdlərin idrak fəaliyyətlərini inkişaf etdirilməsinin əsasını inkişafetdirici təlim təşkil edir. Tədris prosesində şagirdlərin idrak fəaliyyətlərinin inkişaf etdirilməsi müəyyən didaktik sistem vasitəsilə reallaşdırılır. Həmin sistemin məqsədi şagirdlərdə dərin və möhkəm biliklər formalaşdırmaqla təlimdə dərketmənin aktivliyinə nail olmaqla fəaliyyətlərində şüurluluq və müstəqilliyin təmin edilməsidir[49-51].

Həmin sistemin didaktik əsasları aşağıdakılardır.

1. Təlim və zehni fəaliyyətin inkişaf etdirilməsi bir-birilə qarşılıqlı əlaqədə olan iki prosesdir. Bu qarşılıqlı əlaqədə təlim həlledici rol oynayır. Təlim yüksək elmi səviyyədə təşkil edildikdə elmlə məktəb təhsili arasında əlaqə yaradılır və şagirdlərin inkşafı təmin edilir. İnkişaf etmiş ölkələrdə təhsil sisteminin təhlili tədrisin gündəlik həyatla, praktik fəaliyyətlə və bəşəriyyətin qarşısında duran qlobal problemlərlə əlaqələndirilməsi ön plana çəkilir.

2. İnkişafetdirici təlimin xarakterik əlaməti mənimsənilmiş biliklər əsasında aktiv zehni əməliyyatların aparılmasıdır. Bunlar faktlardan ən başlıca olanları müəyyən etmək, problemi həll etmək üçün həmin faktlar arasında ona indiyə qədər məlum olmayan əlaqə formalarını yaratmaq, sonra mühakimələrin düzgünlüyünü sübut etməkdir.

3. İnkişafetdirici təlimin əsasını tədris materialının yadda saxlanması deyil, biliklərin müstəqil surətdə əldə edilməsinə yönələn aktiv zehni fəaliyyət təşkil edir. Həmin biliklərdən problemli suallara cavab tapılmasında və məsələ həllində yaradıcılıqla istifadə edilir.

4. Təlim prosesi şagirdin mürəkkəb fəaliyyətidir. Həmin fəaliyyət nəticəsində o, biliklər sisteminə yiyələnir və onlardan əvvəlcədən nəzərdə tutulan məqsədə çatmaq üçün yaradıcılıqla istifadə edir. Bu zamana alınan biliklər tətbiq edilməklə bacarıqlar və vərdişlər formalaşdırılır. Ən başlıcası şagirddə yeni biliklər əldə etməyə tələbat yaranır.

5. İnkişafetdirici təlimdə bilik və bacarıqlar etaplarla formalaşdırılır və bunlar tədris olunun mövzunun birindən digərinə keçdikdə genişləndirilir və inkişaf etdirilir.

6. Şagirdin idrak fəaliyyətinin inkişafının göstəricisi aşağıdakılardır:

a)biliklərin məzmunu və keyfiyyəti, b) biliklərdən yaradıcılıqla istifadə etmək bacarığı, c) problemə yaradıcılıqla yanaşmaq, bu zamana səhv və qeyri-standart nəticələlərdən çəkinməmək, d) fərdi, cütlər və qruplarla təşkil edilən müstəqil işlərdə məntiqi fikirləşmə tələb edən tapşırıq və məsələlərin xüsusi çəkisini artırmaq.

## İstifadə edilmiş ədəbiyyat:


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənni kurukulumu. “Kurikulum” , 2010, №2, s. 135-143
3. Əliyev A. Kimya fənn kurikulumunun məzmunu barədə. “Kurikulum”, 2010, №2, s. 8-12
4. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri. “Azərbaycan Məktəbi”, 2011, №4, s. 21-32
5. İskəndərov İ. Azərbaycanın ümumi təhsil sahəsində islahatlar // Kurikulum, 2010, №3, s.7-13
6. Мычко Д.И. Графен-перспективный материал наноэлектроники // Химия для школьников, 2011, №3, 15-18 с.
7. Ильичева Е.В. Значение образного мышления в обучении химии // Химия –Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №8, 4-8 с.
8. Adıgözəlov A. Öyrənmənin psixoloji konsepsiyaları və təlimin keyfiyyətinin yüksəldilməsində onların rolu // Azərbaycan Məktəbi, 2011, №4, s. 65-71.
9. Совершенствование содержания образования в школе / Под. ред. И.Д.Зверева, М.П.Кашина. М.: Педагогика, 1985, 271 с.
10. Кабанова-Миллер Е.Н. Учебная деятельность и развивающие обучение. М.: Изд-во Знание. 1981, 93 с.
11. Гаркунов В.П. Методические вопросы научного обьяснения в процессе преподавания химии // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 525-530 с.
12. Зуева М.В. Роль химических задач в развитии логического мышления учащихся // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 530-533 с.
13. Цветков Л.А., Аманова Ф.Н. Проблемный подход в изучении органической химии // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 534-539 с.
14. Иванова Р.Г. Пути достижения глубоких и прочных знаний учащихся по химии // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 520-525 с.
15. Кузнецова Л.М. Современный урок: технологии и методические приемы // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №1, 1-5 с.
16. Малькова Н.В. Сера-9 класс // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №1, 26-32 с.
17. Ершова В.П. Признаки химических реакции-8 класс // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №4, 28-29 с.
18. Кузнецова Л.М. Функциональность знаний и их оценка // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №5, 1-8 с.
19. Ларина С.В. Поиск альтернативных источников энергии.

Интегрированный урок по химии и физике // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №5, 38-43 с.

20. Кирюшкин Д.М., Иванова Р.Г. О путях совершенствования урока химии // Химия в школе, 1970, №5, 16-21 с.

21. Лапина Р.П. О проблемном подходе в обучении химии // Химия в школе, 1970, №3, 22-26 с.

22. Сенько Ю.В. Формирование научно стиля мышления учащихся. М.: Изд.Знание, М.1986, 79 с.

23. Сергиевский В.В., Химия и социально - экологическое сознание // Журнал ВХО им.Д.И.Менделеева, 1990, №3 71-75 с.

24. Смирнова Т.В. Формирование научного мировозрения учащихся при изучении химии. М. Просвещение, 1984, 172 с.

25. Куписевич Ч. Основы общей дидактики. М. Высщая школа, 1986, 367 с.

26. Ильичева Е.В. Значения образного мышления в обучении химии // Химия–Учебно-методическая газета для учителей химии и естествознания, 2010, №8, 4-7 с.

27. Abbasov M.M., Quliyeva Ş.L., Mirzəyev N.H., Mahmudov T.Ə. Məmmədova K.V. Kimyadan problemli-yaradıcı məsələlərin həlli // Kimya məktəbdə, 2014, № 4(48), s.10-18

28. Сатбалдина С.Т. О содержании обучения при организации собственной деятельности учащихся // Химия в школе, 1988, №3, 38-42с.

29. Иванова Р.Г. Организация самостоятельной работы учащихся на уроках химии // Журн. ВХО им.Д.И.Менделеева, 1978, №6. 617-621 с.

30. Ходаков Ю.В., Эпштейн Д.А., Глазиров П.А., Дризовская Т.М., Клещева Е.П., Савич Т.З. Преподавание химии в 7-8 классов. Изд. Просвещение. М.: 1969. 317 с.

31. Совершенствование обучения химии в 7-8 классах средней школы / Под.ред.Р.Г.Ивановой. М.: Просвещение, 1985, 188 с.

32. Полосин В.С. Некоторые вопросы методики школьного химического эксперимента // Журн. ВХО им.Д.И.Менделеева.1971, №3, 340-344 с.

33. Полосин В.С. О взаимосвязи эксперимента и различных средств наглядности в обучении химии // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 544-548 с.

34. Злотников Э.Г., Гаркунов В.П. Функции школного химического эксперимента в условиях развивающего обучения // Журн. ВХО им.Д.И.Менделеева, 1983, №5, 40(520)-43(523) с.

35. Кузнецов В.И., Печенкин А.А. Формирование мировозрения учащихся при изучении химии. М. Просвещение, 1978. 150 с.

36. Химия. Справочные материалы. Под. ред. акад. Ю.Д.Третьякова. М. Просвещение. 1988. 233 с.

37. Пурмаль А.П., Слободетскяя Е.М., Травен С.О., Как превращяются вещества. М. Наука, 1984.175 с.

38. Савич Т.З. Изучение химических элементов по группам периодической системы // Журн. ВХО им.Д.И.Менделеева, 1978, №6, 642-646 с.

39. Сорокин В.В. Фундаментализация обучения химии в вузе. Изд. МГУ. М.: 1991, 91 с.

40. Зайцев О.С. Системно-структурный подход к обучению общей

химии. Изд.МГУ. М:1983, 168 с.

41. Дидактика средней школы. Под. ред. М.Н.Скаткина. М. “Просвещения 1982. 317 с.

42. Скаткин М.Н. Проблемы современный дидактики. М.Педагогика, 1984, 95 с.

43. Цветков Л.А. Преродование химии в школе на уровне современных требований // Химия в школе, 1979, №4, 3-9 с.

44. Зуева М.В. Роль химических задач в развитии логического мышления учащихся // Журн. ВХО им.Д.И.Менделеева, 1975, №5, 530-533 с.

45. Зуева М.В. Развитие учащихся при обучении химии. Пособие для учителей. М. Просвещение, 1978. 190 с.

46. Зуева М.В. Обучение учащихся приминению знаний по химии. Книга для учителей. М. Просвещение, М. 1987.144 с.

47. Ходаков Ю.И. Развитие логического мышления на уроках химии. М.Учпедгиз, 1958, 160 с.

48. Куписевич Ч. Основы общей дидактики. М. Высщая школа, 1986 367 с.

49. Mahmudov T.Ə., Qasımov Ş.L., Əsgərov V.N. Kimyanın tədrisində inkişafetdirici təlim elementlərindən istifadə edilməsi // Kimya məktəbdə, 2014, №1,s.28-36

50. Mahmudov T.Ə., Qasımov Ş.L. Tədris prosesində şagirdlərin zehni fəaliyyətlərinin inkişaf etdirilməsi // Kimya məktəbdə, 2015, №1,s.32-38

Abbasov M.M., Quliyeva Ş.L., Mirzəyev N.H., Mahmudov T.Ə. Məmmədova K.V. Kimyadan problemli-yaradıcı məsələlərin həlli. Kimya məktəbdə, 2014, №4,s.10-18.

Махмудов Т.А.

**Дидактические основы использования развивающего обучения при преподавании химии**

**АННОТАЦИЯ**

В статье анализируется системный подход к развитию познавательной деятельности учеников в процессе обучения. Как основной компонент развивающего обучения рассматривается взаимосвязь между знаниями и познавательной деятельностью учеников. Обсуждается методика переводарепродуктивной деятельности ученика в проблемных ситуациях в продуктивную.

Mahmudov T.A.

**Didactic bases of the use of developing training in teaching of chemistry**

**SUMMARY**

This review demonstrates a systematic approach to the development of cognitive activity of students in the education process. An interrelation between the knowledge of students with their comprehension skills are considered as a key component of training. In the problematic situation a method for the transition from reproductive to productive activity of students is discussed.

**Açar sözlər:** dərketmə, idrak fəaliyyəti, inkişafetdirici təlim, sistemli yanaşma

**Ключевые слова:** развитию познавательной деятельности,
переводарепродуктивной деятельности ученика

**Key words:** cognitive activity of students, education process, problematic situation